# Nəsimi rayonunda ulu öndərin anım günü keçirilib



***Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında keçirilən tədbirdə əvvəlcə, ulu öndərin abidəsi önünə gül dəstələri düzülərək, əziz xatirəsi ehtiramla yad edildi. Sonra müdrik şəxsiyyətin həyat və fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş olundu.***

YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov çıxış edərək dedi ki, bu günlər respublikamızın hər yerində müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin əziz xatirəsi yad edilir: “Əslində, ulu öndər Heydər Əliyev hələ sağlığında Azərbaycan xalqının qəlbində özünə elə bir abidə ucaltmışdı ki, onun xatirəsi daim ürəklərdə yaşayır. Xalqımız tarixi şəxsiyyəti hər gün dərin minnətdarlıq hissi ilə anır”. Xalqların, ölkələrin tarixində həqiqi liderlərin rolu danılmazdır. Onlar öz xalqlarını çətin vəziyyətdən çıxarır, düzgün yol göstərir, taleyüklü məsələlərin həllində müdrik məsləhətçi olurlar. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində əvəzsiz rolu olub. Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb”.

Tədbirdə iştirak edən Milli Məclisin təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov Heydər Əliyevin dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsində, Azərbaycanın sosial-iqtisadi inkişafında, eləcə də, hüquqi dövlət quruculuğu sahəsində misilsiz xidmətlərindən söhbət açdı. Dedi ki, Azərbaycan xalqının milli kimliyinin və özünəməxsusluğunun bariz təcəssümünə çevrilmiş mütərəqqi ənənələrin mükəmməl ideoloji konsepsiya vəziyyətinə gətirilməsi və konkret dövlət modelində reallaşdırılması məhz ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Tədbirdə iştirak edən Milli Məclisin gənclər və idman komitəsi sədrinin müavini Şahin İsmayılov ulu öndərin qurub-yaratdığı müstəqil Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti sayəsində dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrildiyini diqqətə çatdırdı. Bildirdi ki, nə qədər müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, ulu öndər Heydər Əliyev də ürəklərdə yaşayacaq.

YAP Nəsimi rayon təşkilatı ərazi ilk partiya təşkilatının sədr müavini Tamilla Naibova və digərləri çıxışlarında ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs etdilər.

***Ə.BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2021.- 12 dekabr.- S.6.